**UOT 94(479.24)**
**https://doi.org/10.59849/2218-4783.2026.1.84**

# AMEA NAXÇIVAN BÖLMƏSİ ELMİ KİTABXANASI RƏQƏMSAL İNFORMASİYA MÜHİTİNDƏ

# THE SCIENTIFIC LIBRARY OF THE NAKHCHIVAN BRANCH OF THE AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES IN THE DIGITAL INFORMATION ENVIRONMENT

**Samirə SALAHOVA***

## XÜLASƏ

Bu məqalədə, elektron elmi kitabxanaların strukturu, fəaliyyəti, onların rəqəmsallaşması və elm dünyasında tutduğu yer haqqında geniş məlumat verilmiş, həmçinin onların müasir dövr tələblərinə necə cavab verdiyi araşdırılmışdır. Elektron kitabxanaların cəmiyyətin intellektual potensialının formalaşmasında və elmi biliklərin sistemli şəkildə toplanması, gələcək nəslə çatdırılmasında mühüm rol oynayan informasiya mərkəzləri olduğu vurğulanmışdır.

AMEA Naxçıvan Bölməsi Elmi Kitabxanası da elmi-tədqiqat fəaliyyətinin informasiya təminatında mühüm rol oynayan qurum kimi elektronlaşma prosesinə aktiv şəkildə qoşulmuşdur. Məqalədə Elektronlaşma prosesinin kitabxananın fondlarına, oxucu kütləsinin artmasına, gənc tədqiqatçılar, müəllimlər, tələbələr və mütəxəssislərin elmi tədqiqatlarına təsirinə geniş şəkildə yer verilmişdir. Bu kitabxananın, xüsusilə regional elmi mühit üçün bu cür rəqəmsal imkanlar, elmi biliklərin yayılması və inteqrasiyası baxımından böyük əhəmiyyət daşımasından bəhs olunmuşdur.

**Açar sözlər:** *elektron kitabxanalar, elektron xidmət, elektron kataloq, elmi-tədqiqat.*

## ABSTRACT

This article provides extensive information on the structure, activities and digitalization of electronic scientific libraries, as well as their place in the world of science, and investigates how they meet the demands of the modern era. It emphasizes that electronic libraries are information centers playing a crucial role in shaping the intellectual potential of society and in the systematic collection and transmission of scientific knowledge to future generations.

The Scientific Library of the Nakhchivan Branch of the Azerbaijan National Academy of Sciences, as an institution that plays a key role in the information provision of scientific research activities, has actively engaged in the process of digitalization. The article extensively covers the impact of digitalization on the library's collections, the growth of its readership, and its contribution to the scientific research of young researchers, teachers, students and specialists. It discusses how such digital opportunities, particularly for the regional scientific environment, are of great importance in terms of disseminating and integrating scientific knowledge.

**Keywords:** *electronic libraries, electronic services, electronic catalog, scientific research.*

## GİRİŞ

Elmi kitabxanalar qədimdən bu günə müəyyən bir inkişaf tarixi keçmiş, nəsildən-nəslə bir çox görkəmli alimlərin, tədqiqatçıların elmi dünyagörüşündə, bir çox əhəmiyyətli tədqiqatların aparılmasında böyük bir rol oynamışdır. Bu kitabxanalar yalnız kitabların saxlandığı yer deyil, həm də tədqiqatların aparıldığı, alimlərin bir araya gəldiyi, yeni elmi ideyaların doğulduğu mərkəzlər olmuşdur.

* AMEA Naxçıvan Bölməsi, e-mail: samire.memmedova20143@gmail.com
ORCİD: 0009-0000-8550-6817

Elmi kitabxanaların ilk bünövrəsi hələ XIII əsrin əvvəllərində Azərbaycanda təbiətşünaslıq, riyaziyyat, tibb, astronomiya, tarix, fəlsəfə, məntiq və s. kimi elmlərin geniş yayıldığı dövrdə meydana gəlmişdir. Bu dövrdə Təbriz və marağa şəhərində inkişaf edən elm bütün islam aləminə təsir göstərmiş, böyük Azərbaycan alimi Nəsrəddin Tusinin rəhbərliyi ilə yaradılmış Marağa rəsədxanasının elmi şöhrəti bütün dünyaya yayılmışdır. Rəsədxana yarandıqdan sonra onun ətrafında görkəmli alimlərin toplanması, orada ciddi elmi tədqiqatların aparılması onun böyük elm məbədgahına – Akademiyaya çevrilməsinə səbəb olmuşdur. Rəsədxanada 100-dən artıq elmi işçinin fəaliyyət göstərməsi onun böyük tədqiqat mərkəzi olmasından xəbər vermişdir. Marağa rəsədxanası təsis edildikdən sonra Marağa rəsədxanasının yanında Nəsrəddin Tusinin bilavasitə rəhbərliyi ilə böyük bir kitabxana yaranmışdır [Mənbə: https://www.anl.az/el/emb/A.Xelefov/eserleri/kitablar/xa_akit.pdf ]. Belə nəticəyə gəlmək olar ki, məhz elmi kitabxanaların ilk bünövrəsi hələ XIII əsrdə qoyulmuşdur. Beləliklə elmin hərtərəfli inkişafı, elm-tədqiqat sahələrinin artması, ali məktəb şəbəkələrinin sayının artması elmi və xüsusi kitabxanaların yaranmasına şərait yaratmışdı.

## AZƏRBAYCANDA ELMİ KİTABXANALARIN YARADILMASI

Azərbaycanda elmi kitabxanaların tarixi XX əsrin əvvəllərindən başlayır, 1923-cü ildə Nəriman Nərimanov və digər görkəmli ziyalıların təşəbbüsü ilə "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" (Azərbaycan Cəmiyyəti) nəzdində Mərkəzi Elmi Kitabxana əsasını qoyub və bu gün AMEA-nın tərkibində elmi informasiyanın mərkəzi və zəngin irsimizin qorunduğu əsas kitabxana sistemidir. Beləliklə, Azərbaycanda elmi kitabxanalar qədim zamanlardan elmi mübadilə mərkəzi rolunu oynasa da, onların müasir sistemi 1923-cü ildə Mərkəzi Elmi Kitabxananın yaradılması ilə formalaşıb və bu gün də inkişaf etməkdədir. Azərbaycanda ilk elmi kitabxana kimi 1925-ci ildə Hənəfi Zeynallının rəhbərliyi altında yaradılmış Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanası (MEK) tanınır. 1924-cü ildə Cəmiyyətin nəzdində yaradılan "Biblioqrafiya bürosu" MEK-nın təşəkkülü üçün ilkin baza olmuşdur. 1925-ci ildə Cəmiyyətin ilk iclaslarının birində kitabxananın yaradılması haqqında məsələ qaldırılır, qərar qəbul edilir və Elmi kitabxana rəsmi fəaliyyətə başlayır [Əliyeva, 2007, s. 41]. 1945-ci ildə Azərbaycanda müstəqil Elmlər Akademiyasının yaradılması ilə əlaqədar Mərkəzi Elmi kitabxananın tarixində yeni inkişaf mərhələsi başlanır. Daha sonra AMEA-nın nəzdində bir neçə filial yaradılır ki, bu filiallarında tərkibində elmi kitabxanalar fəalliyyət göstərir. Hal-hazırda bu elmi kitabxanalar geniş oxucu kütləsinə xidmət edir və elmi tədqiqatların əsas mərkəzləri hesab olunur.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Elmi Kitabxanası da bu vacib missiyanı həyata keçirən müasir və vətənpərvər bir qurumdur. Elmi kitabxana AMEA Naxçıvan bölməsinin nəzdində düz 53 ildir fəaliyyət göstərir. Naxçıvan Regional Elm Mərkəz adı altında fəaliyyət göstərən elmi kitabxananın əsası 1972-ci ildə qoyulmuşdur. Ümummilli lider Heydər Əliyevin səyi nəticəsində kitabxana 2002-ci il avqust tarixli sərəncamı ilə yaradılan AMEA Naxçıvan Bölməsinin tərkibində öz fəaliyyətini davam etdirməkdədir. Yarandığı dövrdən oxuculara ənənəvi xidmət göstərən kitabxana hal-hazırda oxuculara elektron xidmət göstərən akademik kitabxanadır. Kitabxana yaranmasından qısa müddət ərzində 2003-2004-cü illərdə kitab fondu 20436-ya çatmışdır [Behbudova, 2015, s. 19]. 2006-cı ildə kitabxanada "Xarici ədəbiyyat" şöbəsi yaradılmış və bu şöbədə qərbi Avropa və Şərq dillərində kitab və jurnallar sistemləşdirilmişdir. Fonda daxil olan kitablar əsasən elmi kitabxanalar üçün KBT ilə təsnifləşdirilir. Məhz KBT-nin elmi kitabxanalar üçün variantı da ilk dəfə Azərbaycan Milli Elmlər Akademiyasının Elmi Kitabxanasında 1967-ci ildən tətbiq edilir [https://ldhk.edu.az/eldhk/uploads.pdf].

Tədqiqatların səmərəliliyinin artması, tədqiqatçıların elmi-tədqiqat sahəsinə axınının güclənməsi, operativliyinin təmin olunması məqsədilə elmi kitabxanaların elektronlaşdırılması mühüm məsələlərdən biri idi. Dünyada ilk elektron kitabxana 1971-ci ildə professor Maykl Hart tərəfindən

yaradılıb. Azərbaycanda isə 80-ci illərin sonlarında Azərbaycan Milli Elmlər Akademiyasının Avtomatlaşdırılmış İdarəetmə Sistemləri şöbəsinin əməkdaşları tərəfindən musiqi alətlərinin elektron kitabxanası yaradılmış, daha sonra bu sahə daha da inkişaf etdirilmişdir [Əliyeva, 2021, s. 25].

## AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİ ELMİ KİTABXANASININ ELEKTRON KİTABXANA KİMİ FƏALİYYƏTİ

AMEA Naxçıvan Bölməsi Elmi kitabxanası isə elektronlaşmağa 2013-cü il sentyabr ayının 4-də başlamış və kitabxana 12 terabayt yaddaşı olan əsas və ehtiyat serverlə, oxucuların rahat şəkildə elektron resurslardan istifadə edə bilməsi üçün elektron oxu zalı, printer, skaner, mobil elektron lövhə ilə təmin olunmuşdur. Həmçinin kitabxananın www.ekitab.ameanb.nmr.az internet saytı hazırlanaraq oxucuların istifadəsinə verilmişdir. Saytda kitabxana ilə operativ əlaqə saxlamaq, elektron axtarış xidmətlərindən istifadə etmək, kitab sifariş vermək və kataloqda axtarmaq, dövri mətbuatla tanış olmaq imkanı yaradılmışdır.

Kitabxana Respublika ərazisində bir çox kitabxana ilə KAA vasitəsilə kitab mübadiləsi həyata keçirmişdir. Bunlardan Məmməd Səid Ordubadi adına mərkəzi kitabxana, Naxçıvan Dövlət Universitetinin elektron kitabxanası, Mirzə Fətəli Axundov adına Milli kitabxana, AMEA Mərkəzi elmi kitabxana, Azərbaycan Respublikası Prezident kitabxanası, AMEA Şəki Regional Elmi Mərkəzinin kitabxanası, Aqrar Tədqiqatlar Mərkəzi ilə elektron mübadilə aparılmışdır. Kitabxanada hal-hazırda əsas fond, depozitar fond, referativ jurnal fondu, avtoreferat və dissertasiya fondu bir çox dəyərli çap məhsullarına ev sahibliyi edir. Kitabxana kataloq və kartoteka sistemi vasitəsilə oxuculara xidmət göstərir.

## ƏSAS FOND

Yerli və xarici kitabların ümumi və fərdi uçotunun aparılması, kitab fonduna daxil olan ədəbiyyatın elmi və kütləvi KBT ilə təsnifatlaşdırılması, xarici ədəbiyyat fondunun kitablarının indekslənməsi və elektron kataloqlaşdırılması işinin aparılması, fonda daxil olan yeni kitabların bülletenlərinin hazırlanması, elektron kataloqa salınmış kitabların sistemli qaydada əlifba sırası ilə yerləşdirilməsi işini həyata keçirir. Kitabxanaların elektronlaşmasından sonra gənc tədqiqatçılar, tələbələr müəllimlər nəinki ənənəvi formada informasiya ala bilirlər, həm də onlara lazım olan ədəbiyyatının elektron versiyasını əldə edə bilirlər. Yəni Oxucular kitabxana divarından kənarda da istədikləri ədəbiyyatı www.ekitab.ameanb.nmr.az vasitəsilə onlayn şəkildə əldə edə bilirlər. Hal-hazırda kitabxana fondunda 46321 kitab saxlanılır.

## KOMPLEKTLƏŞDİRMƏ VƏ BİBLİOQRAFİYA ŞÖBƏSİ

Bu şöbəyə bir neçə fond daxildir. Bunlardan referativ jurnal fondu, avtoreferatlar və dissertasiyalar fondu oxuculara xidmət göstərir. Dövrü mətbuat fondunda 36 ədəd tematik biblioqrafik kartoteka və hər bir kartotekadakı onlarla rubrikalar müxtəlif elm sahələrinə dair mövzuları əhatə edir. Bu kartotekalardan bəziləri mövzu kartotekalarıdır ki, həm aktual həm də geniş oxucu kütləsinin maraq və istəyi nəzərə alınaraq ən əhəmiyyətli mövzuya həsr olunmuş kartotekalardır. Buna misal olaraq, xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, milli mədəniyyətimizin inkişafı, xalqın adət-ənənələrinin zənginləşməsi üçün kitabxanaların inkişaf etdirilməsi və gələcək nəslə ötürülməsi barədə əlindən gələni əsirgəməyən ümummilli lider Heydər Əliyev irsini təbliğ edən və onun həyatını, siyasi fəaliyyətini əks etdirən kartotekadır. 2003-cü ildə elmi kitabxanada avtoreferat və dissertasiya fondu yaradılıb. Hər il onlarla dissertasiya və yüzlərlə avtoreferat kataloqlaşdırılır. Kitabxana daxil olan avtoreferat, dissertasiya, qəzet və jurnalların ənənəvi və elektron kataloqlaş-

dırılmasını həyata keçirir. 11097 ədəd avtoreferat, 126 ədəd dissertasiya, 6200 jurnal və 18635 qəzet məqaləsi elektron qaydada işlənib kataloqa salınmışdır. Həmçinin şöbə oxucuların elektron və ənənəvi qeydiyyatı, xidmət işində elektron və ənənəvi kataloq-kartoteka sistemindən istifadə işinə nəzarət edir.

**KİTABİŞLƏMƏ, KATALOQLAŞDIRMA, ANNOTASİYA ŞÖBƏSİ**

Kitabxanaya daxil olan yeni ədəbiyyatın elmi kataloqlaşdırılmasını və texniki cəhətdən işlənməsini həyata keçirir. Kitablar komplektləşdirmə şöbəsinə daxil olduqdan sonra, ilk öncə ştamp vurulur, pasport, ciblik, müddət vərəqəsi yapışdırılaraq inventar nömrəsi verilir və təsnifləşdirilir. Kitabxananın komplektləşdirilməsində mühüm rolu dövlət başçısı, muxtar respublika rəhbərliyi, Azərbaycan Milli Elmlər Akademiyası rəhbərliyinin maliyyə vəsaiti hesabına alınan və hədiyyə olunan kitablar kitabxananın fondunun zənginləşməsinə xidmət edir. Kitabişləmə şöbəsində ənənəvi şəkildə sistemli və əlifba kataloqu təşkil olunmuşdur. Həmçinin hər bir kataloqda müxtəlif elm sahələrinə dair mövzular əhatə olunmuşdur. Ümumilikdə 16717 adda 40951 min nüsxə elektron kataloqa salınmışdır. 2063 kitab isə pdf halına salınaraq istifadəçilərin ixtiyarına verilmişdir [AMEA Naxçıvan Bölməsinin hesabatı, 2025].

**SKANER ŞÖBƏSİ**

2013-cü cü il 4 sentyabrda Kitabxana elektronlaşmağa başlamış, “PROLİB” avtomatlaşdırılmış kitabxana-informasiya sistemi tətbiq olunaraq elektron kataloqun bazasında işlər davam etdirilmişdir. Bu şöbə kitabların, qəzet materiallarının elektron variantının hazırlanması və internet və lokal şəbəkədə yerləşdirilməsi, elektron oxucu davamiyyətinin qeydiyyatı və oxuculara xidmət işinin təşkilinə nəzarət edir. Hər il ardıcıl olaraq əlamətdar günlərlə bağlı virtual sərgilər tərtib edilib, kitabxananın elektron ünvanına yerləşdirilmişdir.

**DEPOZİTAR FOND**

Fond elmi, tarixi, bədii əhəmiyyətə malik lakin, az istifadə olunan ədəbiyyatın depozitar fonda qəbul edilməsi, fondda texniki və elmi sistemləşdirmənin aparılması, müxtəlif sərgilərin (Yeni kitab sərgiləri, yubiley tarixi və əlamətdar günlər münasibəti ilə) təşkilinə nəzarəti həyata keçirir. Depozitar fondlar kitabxanada baza rolunu oynayır yəni bu fondda keçmişdən indiyə qədər əhəmiyyətini hələdə itirməmiş çap məhsulları saxlanılır. Depozitar fondları bir neçə yerə ayırmaq olar. Bunlara Respublika daxili depozitar fondlar, Universitetlərin, institutların, AMEA və onu filiallarının elmi kitabxanaları, elmi təşkilatların, müəssisələrin kitabxanalarının depozitar fondları və rəqəmsal yəni elektron depozitar fondları deyə bilərik. Bu fondda saxlanılan çap məhsulları uzun müddət kitabxana daxilində qorunur və bu sayədə informasiyaya gələcək nəsillərin, elmi tədqiqatçıların asanlıqla müraciət etməsini təmin edir.

**ƏNƏNƏVİ VƏ ELEKTRON ZALI**

2013-cü ildən fəaliyyət göstərən bu zala oxucuların sərbəst sürətdə istifadə edə bilməsi üçün internetlə təchiz olunmuş 7 kompyuter və 1 televizor quraşdırılmışdır. Hər il elektron zalda yüzlərlə oxucu elmi tədqiqat üçün əhəmiyyətli olan kitabların elektron versiyasından maneəsiz olaraq istifadə edə bilir.

## NƏTİCƏ

Kitabxana sisteminin rəqəmsallaşması digər kitabxanalarla yanaşı akademik kitabxanalarında fəaliyyətində mühüm rol oynamışdır. AMEA Naxçıvan bölməsinin elmi kitabxanasında elektron xidmətlərdən istifadə sayəsində dəyərli elmi nəşrlərin elektron versiyasının oxuculara, xüsusilə gənc tədqiqatçılara təqdim olunması elm və tədqiqat sahəsinə marağın artmasına səbəb olmuş və bu sayədə kitablarımız nəinki ölkə daxilində, həm də beynəlxalq səviyyədə nümayiş etdirilmişdir.

Elmi kitabxanaların rolu, xüsusilə müasir dövrdə informasiya texnologiyalarının inkişafı ilə daha da əhəmiyyət kəsb edir. Ən müasir elmi məlumat bazaları, elektron resurslar, rəqəmsal arxivlər və onlayn məlumat mübadiləsi imkanları, kitabxanaların xidmətlərini daha da genişləndirir. Bu resurslar vasitəsilə elmi məqalələrə, monoqrafiyalara, elektron kitabxanalara və digər elmi işlərə asanlıqla çatmaq mümkündür. Bununla yanaşı, elmi kitabxanalar akademik nəşrlər, simpoziumlar və müxtəlif tədris və tədqiqat təşəbbüslərinə də ev sahibliyi edir. Ən əsası, elmi kitabxanalar biliklərin əldə edilməsi və yayılmasına imkan yaradır, elmi ictimaiyyətin inkişafına və cəmiyyətin ümumi intellektual səviyyəsinin yüksəlməsinə böyük töhfələr verir. Bu səbəbdən, elmi kitabxanaların inkişafı və müasir texnologiyalarla uyğunlaşması elm dünyasının gələcəyi üçün vacibdir. Tədqiqatçıların və tələbələrin elmi işlərini asanlaşdıran bu kitabxanalar, elm sahəsində daha geniş əməkdaşlıq və məlumat paylaşımını təşviq edir. Bu baxımdan, elmi kitabxanaların inkişafı və müasir dövrün tələblərinə uyğunlaşması, elmin gələcəyinə əhəmiyyətli təsir göstərir.

Nəticə etibarilə, elmi kitabxanaların elektronlaşması yalnız təhsil və tədqiqatın əsas hissəsi deyil, həm də cəmiyyətin intellektual mədəniyyətinin inkişafında mühüm rol oynayır. Onların dəstəyi ilə elm, daha da irəliləyir və cəmiyyətin qabaqcıl biliklərə çıxışı təmin edilir.

## ƏDƏBİYYAT

*AMEA Naxçıvan Bölməsinin 2025-ci ilə aid elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatı.* (2025). Tusi.

Behbudova, A. (2015). *Naxçıvan Muxtar Respublikasında elmi kitabxanaların tarixi və inkişafı*. Əcəmi.

Əliyeva, A. (2007). *Müasir Azərbaycanda elmin informasiya təminatı və kitabxanalar*. Elm.

Əliyeva S. (2021). *Azərbaycan elminin inkişafında elektron kitabxanaların rolu. Elektron kitabxanaların təşkili və formalaşması problemləri online Respublika elmi konfransı*. Qeyret.

https://www.anl.az/el/emb/A.Xelefov/eserleri/kitablar/xa_akit.pdf

https://ldhk.edu.az/eldhk/uploads.pdf

*(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 12.02.2026**
**Son variant 04.03.2026**